

■ Elçin Cəfərov
teatrşünas



■ Könül Əliyeva
teatrşünas

# Gənclərin İkinci Beynəlxalq Forumu:
# Sözdən... hərəkətə doğru

**1-ci məqalə**

19-26 noyabr tarixlərində Belarus Respublikasının paytaxtı Minsk şəhərində Gənclərin İkinci Beynəlxalq Forumu keçirildi. Xatırladaq ki, 2012-ci ildə keçirilən Birinci Forumda Belarus teatrının "Ofis" tamaşası birinci mükafata layiq görülmüşdü. Odur ki, ikinci Forumda 14 ölkənin teatr mütəxəssisləri Belarusun qonağı oldu.

Beynəlxalq Teatr Xadimləri İttifaqlarının Konfederasiyasının təşkilatçılığı ilə baş tutan Forum Birliyə daxil olan ölkələrin, Baltikyanı dövlətlərin və Gürcüstanın gənc teatr xadimlərinin işlərinə baxış sərlövhəsi ilə keçirilirdi. Forumda Rusiya, Gürcüstan, Qazaxıstan, Belarus, Moldova, Estoniya, Litva, Latviya, Qırğızıstan, Ukrayna, Özbəkistan, Tacikistan, Ermənistanla yanaşı, Azərbaycanın da gənc teatr xadimləri - rejissor Mikayıl Mikayılov, teatrşünaslar Elçin Cəfərov, Könül Cəfərova, dramaturqlar İsmayıl İmanov, Nərgiz Bağırzadə və rəssam Turan Kərimbəyli iştirak edirdi.

__Haşiyə:__ *Rusiya hər bir vasitə ilə keçmiş SSRİ məkanını bərpa etməyə çalışır. Bunun üçün ən effektiv vasitələrdən biri "MDB məkanı" (Müstəqil Dövlətlər Birliyi, guya, dünyada müstəqil dövlət statusu olan ölkələr təkcə keçmiş sovet məkanındadır...) anlayışını uydurmaq və bu anlayışı siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə geniş şəkildə inkişaf etdirməkdir.*

*MDB ölkələrinin rusca danışması, rusca düşünməsi üçün yəqin ki, teatr festivalından yaxşı bir vasitə ola bilməz. Odur ki, bu məqsədlə Belarusun paytaxtı Minskdə Azərbaycan, Qazaxıstan, Estoniya, Ermənistan, Tacikistan, Ukrayna, Özbəkistan, Latviya, Litva, Moldova və Gürcüstan teatr adamları təxminən 10 gün ərzində rusca danışıb, rusca düşündülər, rus mədəniyyəti ilə yaşayaraq, rus mətbəxindən qidalandılar. Deməyimiz o ki, bu da bir siyasətdir. Siyasət olmasına siyasətdir, amma yaxşı tərəfləri də çoxdur. Ən azı ona görə ki, 10-dan artıq mədəniyyət bir-biri ilə sənət mübadiləsində bulundu. Bu fakt özü-özlüyündə konkret nəticələrə gəlməyə imkan verir ki... "Ki"lər növbəti haşiyələrdə...*

Forumda Azərbaycanı Akademik Milli Dram Teatrı Mikayıl Mikayılovun "Kitabi-Dədə Qorqud" eposunun "Dirsə xan oğlu Buğac" boyu əsasında hazırladığı "İlahi oyun" tamaşası ilə təmsil edirdi. Forumun açılışı 19 noyabr tarixində Belarus Dövlət Gənclər Teatrında baş tutdu. Təşkilatçıların və forum iştirakçılarının, rəsmi nümayəndələrin, Belarus teatr ictimaiyyətinin və mətbuat nümayəndələrinin qatıldığı rəsmi açılış mərasimindən sonra Belarus Dövlət Gənclər Teatrının proqramdan kənar **"Çexov. Komediya. Qağayı"** tamaşası (rejissor İskander Sakayev) nümayiş olundu.

Proqramın ilk tamaşası isə Azərbaycan teatrının **"İlahi oyun"** tamaşası idi. Yanka Kupala adına Milli Akademik Teatrın əsas səhnəsində nümayiş olunan tamaşa yerli vaxtla saat 19.00-da başlandı. Cəmi 85 dəqiqə çəkən və titrsiz nümayiş olunan tamaşa seyrçilər və teatr mütəxəssisləri tərəfindən maraqla qarşılandı. Əməkdar artistlər Vidadi Həsənov, Pərviz Məmmədrzayev, aktyorlar Nigar Güləhmədova və Novruz Novruzlunun ifasında nümayiş olunan tamaşa birnəfəsə baxıldı. Bu səhnə əsəri Azərbaycan teatrı haqqında o qədər də müsbət olmayan təsəvvürləri kökündən dağıda, milli teatr ənənələrimizə maraq oyada bildi. "İlahi oyun" tamaşası haqqında uzun-uzadı danışmağı lazım bilmirik. Akademik Milli Dram Teatrının repertuarında olduğundan, saygıdəyər oxucumuz istədiyi zaman teatra buyurub tamaşaya baxa bilər.

Proqram çərçivəsində nümayiş olunan ikinci tamaşa Ş.Kusainov adına Akmolin Qazax Musiqili Dram Teatrının **"Arzu qatarı"** tamaşası idi. Qazaxstanlı rejissor Bulat Abdrahmanovun ABŞ yazarı T.Uilyamsın eyniadlı pyesi əsasında hazırladığı tamaşa 2 saat 20 dəqiqə davam edirdi. Tamaşanı Qazaxstan teatrının böyük nailiyyətləri cərgəsinə daxil etmək olmazdı. Tamaşa pyesin primitiv, birbaşa səhnə yozumundan ibarət idi. T.Uilyamsın simvol, obraz kimi istifadə etdiyi qatarı nədənsə tamaşanın yaradıcıları birbaşa mənada anlamış, səhnədə qatar dekorasiyası qurmuşdular. Tamaşada bütün hadisələr üstündə "desire" (arzu, istək, ehtiras) sözü yazılan qatarın içində və ətrafında cərəyan edir. Adamın ağlına gələn ilk sual bu olur ki, Kusainov adına teatrın kollektivi necə olub ki, ərinmədən, yorulmadan, usanmadan bu böyüklükdə dekorasiyanı 5000 km məsafə qət edərək Qazaxstandan Minskə gətirib çıxara biliblər.

T.Uilyamsın əsərinin tərtibat planında bu sayaq naturalistik yozum özü-özlüyündə tamaşanın ab-havasını təyin edir. Demək olar ki, tamaşanın əvvəlindən axırına qədər səhnədə heç bir rejissor yozumu görünmür. Lirik-psixoloji ifa tərzinə meyilli aktyorlar - Marjan Bukeşova (Blanş Dübua), Gulmira Jakilina (Stella), Baqlan İmanqazinov (Stenli Kovalski), Zulkapil Batixan (Mitç), Asılbek Taşimov (Alan) və başqaları emosional tərzdə pyesdəki hadisələri tamaşaçıya çatdırmaqla məşğuldurlar. Bu mənada, tamaşa ədəbiyyat dərsliyinə əlavə qismində "oxunur". Yalnız bir məqamda rejissor dramaturqla razılaşmır, onunla konfrantasiyaya girir, daha optimist olmağa çalışır. Bəllidir ki, T.Uilyamsın pyesində əsas qəhrəman Blanş Dübua axırda dəlixanaya düşür. Rejissorsa fərqli final təklif edir: Alan Blanşı bağışlayır və onu bu iyrənc yerdən, həyatın dibindən çəkib çıxararaq, başqa bir dünyaya aparır. Bu cür yozum tamaşanın məntiqi strukturunu sökür. Əslində, pyesdə əri öldükdən sonra "həyatın dibinə" düşən, qarşısına çıxan hər adamla yatan, "Arzu" adlı böyük ata malikanəsini (yeri gəlmişkən, malikanənin adı da simvolik xarakter daşıyır) satan, bacısının əri tərəfindən zorlanan, sonuncu ümidi olan Mitç tərəfindən rədd edilən, təhqir olunan Debuanın dəlixanaya düşməkdən başqa yolu yoxdur. Yəni bütün hadisələr məhz belə bir faciəvi sonluğa aparır. Həyat rejissor B.Abdraxmanov qədər mərhəmətli deyil və Debua bu amansız həyatda məhvə məhkumdur. Rejissorsa qəhrəmanını zorla da olsa, dəlixanaya düşməkdən xilas etməyə çalışır. Bu isə, tamaşanın əməl xəttini dağıdır. Rejissor finalda romantik həllə əl atır. Realist planda hazırlanan tamaşada psixoloji məcrada davam edən hadisələrin bu cür romantik sonluqla tamamlanması səhnə əsərinin bitkinliyinə xələl gətirir. Əlbəttə ki, rejissor pyesi istədiyi kimi yozmaqda, hətta lazım gələrsə, hadisələri baş-ayaq qoymaqda sərbəstdir, necə deyərlər, sahibi-ixtiyardır. Amma yozumun məntiqli, təsirli və inandırıcı olması şərtilə...

Forumun proqramında növbəti tamaşa Estoniya teatrının idi. Estoniyanın Nii Kompaniyasının və Tartu Yeni Teatrının birgə işi olan **"Təmiz idrak/Dişlə məni"** tamaşası forumda təqdim olunan ən maraqlı tamaşalardan idi. Bəri başdan deyək ki, forumun birinci mükafatına da layiq görüldü.

Fiziki teatr üslubunda hazırlanmış tamaşanın müəllifi, rejissoru və xoreoqrafı Renate Keerd idi. Bu, 2012-ci ildə R.Keerd tərəfindən yaradılan kompaniyanın ikinci tamaşasıdır. Rejissor tamaşanı PURE MİND adlandırıb. Bu söz birləşməsi təmiz idrak anlamına gəlir. Həmin söz birləşməsi eston dilindən dilimizə tərcümədə "dişlə məni" mənasını verir. Tamaşanın bu cür ikimənalı adı səhnə əsərinin mahiyyətini anlamaq üçün açar rolunu oynayır.

__Haşiyə:__ *Yeri gəlmişkən, ya da gəlməmişkən, fiziki teatr üslubu müasir dünya teatrının əsas inkişaf istiqamətlərini təyin edir. Bəzən pantomim, rəqs, hərəkət teatrını və fiziki teatrı eyniləşdirirlər, amma bu üslublar arasında müəyyən yaxınlıq və bənzərlik olsa da, onların hər biri fərqli üslublardır. Azərbaycan tamaşaçısı hələ ki, yalnız pantomim teatrını tanıyır. B.Xanızadənin atasına min rəhmət. Digər üslublardan, alternativ formalardan isə bibəhrə qalmışıq. Avropada geniş yayılmış fiziki teatr üslubu ayrılıqda geniş bir tədqiqatın mövzusudur. Bizi-biçarələrə isə bu və bu qəbildən olan üslub və formaların Azərbaycan teatrında mövcud olmamasına ancaq təəssüflənmək qalır...*

Daha çox hərəkət və musiqi üzərində qurulan (xatırladaq ki, Renata Keerd daha çox məhz xoreoqraf kimi tanınır) tamaşada rejissor dramaturji əsasdan, ənənəvi ifadə vasitələrindən, qəbul olunmuş sənət konsepsiyalarından, teatr təfəkküründən, qavrayış modellərindən imtina edib. Xüsusən, yaradıcı heyətin əsrlər boyu teatr sənətinin yeganə mövcudluq forması sayılan ədəbi əsasdan, dramaturji özüldən, ədəbiyyat qanunlarından imtina etməsi olduqca cəsarətli addımdır. Tamaşada ədəbiyyatdan gələn heç nə yoxdur, nə hadisə, nə ana xətt, nə konflikt, nə qəhrəmanlar.

Tamaşada heç konkret süjet xətti də yoxdur. Süjet səhnədə bir-birini əvəzləyən sözsüz səhnələrin yaratdığı assosiativ cərgələr əsasında formalaşır. Daha konkret desək, hər bir tamaşaçının beynində öz süjeti yaranır və bu süjetlər bir-biri ilə üst-üstə düşməyə bilər.

Simvollarla, işarələrlə dolu tamaşanın yozumu məhz bu işarələrin seyrçi qavrayışındakı yozum xüsusiyyətləri ilə təyin olunur. Yəni eyni zalda oturub eyni tamaşaya baxan seyrçilər fərqli-fərqli ideyalar, fərqli süjetlər, nəticə etibarilə fərqli tamaşalar görürlər. Aktyorlar bir göz qırpımında adi ağacdan, insana, insandan topa, topdan təlxəyə, klouna, kloundan kişi və qadın başlanğıcını ehtiva edən qəraib məxluqa, insanın ağlına gələ biləcək hər şeyə... çevrilirlər. Onlar bütöv bir dünyaya dönürlər və dünyanı oynayırlar - sözsüz... bədənləri, mimikaları, jestləri, hiss-həyəcanları ilə... Xüsusən, qadın və kişinin bir vücudda birləşdiyi və Platonun "Pir" dialoqunda təsvir edərək androgin adlandırdığı məxluq (ibtidai insan) şəklində zühur etdiyi səhnələr işarələrlə, simvollarla, fəlsəfi mesajlarla doludur. Tamaşada qadın və kişi personajları yoxdur. Çox asanlıqla qadın kişiyə, kişi qadına çevrilir, qadın kişi, kişi qadın qiyafəsində zühur edir, kişi qadını, qadın kişini çiyninə alır. Beləcə, qadınla kişi bir vücudla birləşərək, şəffaf lentlə hüdudlanan səhnə-podiumda model (maniken) ədası ilə yeriyirlər.

*(Davamı səhifə 11-də)*







# Gənclərin İkinci Beynəlxalq Forumu:

# Sözdən... hərəkətə doğru

(Əvvəli səhifə 10-da)

Ümumiyyətlə, tamaşa səhnədə həmişə konkret süjet görməyə, hadisələr xəttini izləmə alışmış seyrçiləri yüngül şok vəziyyətinə salır. Elə birinci səhnədə aktyorlardan biri səhnədəki böyük hörümçək torundan özünə saqqal düzəldir və bununla da, hörümçək torunu klassik simvol qismində qavrayıb da indicə şekspirsayağı fəlsəfi mükalimələr, ibratamiz kəlamlar eşidəcəyini gözləyən seyrçinin gözləntilərini darmadağın edərək onların oturduğu oturacaqların altından sürünə-sürünə keçir. Kök bir aktrisa tamaşaçıların gözü qarşısında sellofan torbaları bir-birinin ardınca ovurduna doldurur, 3 nəfər tibb bacısı başına sellofan torba keçirməklə və paltarına 4-5 qara lent yapışdırmaqla ağcaqayın ağacına çevrilir. Beləcə bir-birini əvəz edən parlaq, maraqlı abstrakt səhnələr tamaşaçını başqa qavrayış dalğasına köklənməyə və səhnədə baş verənlərdən zövq almağa məcbur edir. Rejissorun kiçik tapıntıları (hətta buna kəşf də demək mümkündür) bir-birini əvəzlədikcə tamaşa sona doğru yaxınlaşır. Sürətli temporitm, maraqlı forma tapıntıları 1 saat 40 dəqiqə ərzində tamaşaçını bir an da olsa səhnədə baş verənlərdən yayınmağa qoymur. Hərçənd ki, tamaşada bəzi səhnələrin Saşa Valtsdan bəhrələnərək yaradıldığını iddia etmək olar. Postmodernizm dövrünün teatrı bu sayaq bəhrələnmələri, reminissensiyaları, hətta “dırnaqsız sitatları” yolverilməz hesab etmir. Tamaşanın final səhnəsi (daha doğrusu, yalançı final, yaxud birinci final) xüsusilə diqqəti cəlb edir. Tamaşanın ən parlaq səhnələrindən olan 4 ifaçının bir qırmızı almanı dişləməsi (yaxud bu alma vasitəsilə öpüşməsi) səhnəsindən sonra ifaçılar səhnəyə alt paltarlarında, başlarında papaq, əllərində əlcək çıxaraq, vedrədəki buz parçalarını yerə atıb, özləri üçün “buz meydançası” yaradırlar və balaca uşaq kimi sevinə-sevinə bu meydançada qartopu oynayır, sürüşürlər. Bu səhnənin sözlə ifadə edilə bilməyəcək çox güclü energetikası, müsbət aurası var.

Renata Keerdin maraqlı teatr təfəkkürü, bədii düşüncə tərzi “Təmiz idrak/ Dişlə məni” tamaşasının uğurunun əsas təminatçısı kimi çıxış edir. Amma tamaşanın Liiza Tetsmann, Taavi Rey, Maarya Roolaxt, Gerda-Anette Allikas və İmre Iunapuudan ibarət aktyor heyətini də xüsusi vurğulamaq lazımdır. Mükəmməl plastikaya malik bu gənc aktyorlar səhnədə hər hərəkətləri ilə tamaşaçını heyrətləndirməyi bacarırlar. Aktyorların çevikliyi, fiziki hazırlığı, plastik imkanları ilə yanaşı, səhnə sərbəstliyi də qibtə ediləcək həddədir. İfaçılar səhnədə olmaqlarından həzz alırlar, oynadıqları oyun onları xoşbəxt edir və xüsusilə qartopu səhnəsində bunu görməmək mümkün deyil. Estoniya teatrının sözügedən tamaşası çox mübahisələrə, fikir ayrılığına səbəb oldu. Heç “Təmiz idrak/ Dişlə məni” tamaşasını proqrama daxil olan ən yaxşı tamaşa hesab etmirik də, amma, bir şey dəqiqdir ki, forumdan sonra Renata Keerdin adı və teatr düşüncəsi çətin ki, yaddaşlardan silinə...

Forumun növbəti tamaşası Yerevan Dövlət Gənc Tamaşaçılar Teatrının “Bal dadı” tamaşsıdır. Qor Marqaryanın Şeyla Dileninin eyniadlı pyesi əsasında hazırladığı “Bal dadı” tamaşanı da forumun ən yaxşılarından hesab etmək olmaz. Amma tamaşa müasir zamanın aktual problemlərinə toxunmaq baxımından təqdirəlayiqdir. Tamaşanın yaradıcıları insanlar arasında ünsiyyətin, qarşılıqlı münasibətin, dostluq və sevginin vacibliyindən bəhs edir. Gənc Co anası ilə birlikdə kasıb bir otaqda, çatışmazlıqların əhatəsində, səfillik içində yaşayır. Ancaq bu ailənin əsas problemi maddi çətinlik yox, mənəvi, ruhsal problemdir, insani ünsiyyətin, sevginin, anlayışın, əxlaqın yoxluğudur. Ailənin mənəvi-əxlaqi problemi onların həyatını cəhənnəm əzabına çevirib. Ellen ərə getmək, özünə təmin olunmuş həyat qurmaq üçün doğma qızını tərk edir. Tənhalıq içində və qeyri-əxlaqi mühitdə böyümüş Co günümüzün “qəzəbli gənclər”indəndir. Ancaq o, ləyaqət və cəsarət hissini tam itirmir. Onun həyatında fərəhli heç nə yoxdur. Qaradərili Cimmlə sevgi macərası ona sevinc gətirmir. Hətta bizə elə gəlir ki, Co əslində Cimmi sevmir, sadəcə, anasının acığına “öz həyatını məhv etmək” üçün ona təslim olur. Tamaşanın ideya məndəricəsində Cef obrazı mühüm rol oynayır. Cef gənc qızın həyatda yeganə dayağına çevrilir. O, Coya heç vaxt görmədiyi ana sevgisi bəxş edir. Cef özü yox, məhz onun sevgisi, insanlığa, xeyirxahlığa inamı Conun həyatını dəyişir. Rejissor tamaşanı incə psixoloji xətt üzərində qurub. Tamaşanın emosional, aşırı psixoloji tonu tamaşaçıya təsir edir, onu sentimental ovqata kökləyir. Lakin bu məqamda onu da qeyd etməliyik ki, rejissor cəsarətli addım atmaqdan çəkinir və pyesdən fərqli olaraq, Cefin homoseksualist olmasını “pərdələyir”.

Tamaşanın səhnə tərtibatı obrazlı, ifadəli xarakteri ilə diqqət çəkir. Səhnə boyu düzülən boş qutular kasıb və səliqəsiz mənzilin atmosferini yaratmağa kömək edir. Ancaq tamaşanın gedişatında bu səhnə modulunun işləmədiyinin, funksional əhəmiyyət daşımadığının şahidi oluruq. Mizanlarda səhnənin yalnız kiçik bir hissəsi “işləyir”. Belə olan təqdirdə, ilk baxışda xoş ovqat yaradan dekorasiya, səhnəyə səliqəsiz şəkildə “tullanılmış” lazımsız əşyaları xatırladır.

Həddindən artıq köhnə ifadə vasitələrindən istifadə olunan tamaşanın proqramı ilə tanış olmasaq, rejissorun yaşıdımız olmasına inanmaq çətin olardı. Çünki tamaşa müasirlikdən, yeni teatr təfəkküründən uzaq, 60-cı illərə - “qeyzli romantiklər”ə nostalji qismində qavranılır...

Növbəti tamaşa Kamol Xudjandi adına Tacikistan Dövlət Musiqili Komediya Teatrının təqdim etdiyi **“Muşfikinin gəncliyi”** iki hissəli fəlsəfi-romantik musiqili dramı idi. Kurboncan Bobacanovun quruluş verdiyi tamaşa kamera xarakterlidir. Səhnənin içərisində səhnə yaradılıb. Tamaşanın ən maraqlı cəhəti Şərq mədəniyyətini, Şərq fəlsəfəsini simvollaşdıran səhnə tərtibatı idi. Səhnədə bəzi məqamlarda natural effektlərdən istifadə olunmuşdu. Səhnənin mərkəzində qoyulan dəzgahlar aralanır və dəzgahların ortasındakı su çayı xatırladır. Tacikistan teatrının tamaşası haqqında geniş danışmağa ehtiyac duymayaraq, forumun ikinci mükafatına layiq görülən Ukraynanın “İnsanların sevgisi” tamaşasına diqqəti yönəltmək istəyirik. Çünki tacik tamaşasının ən maraqlı tərəfi elə rejissorun ad-familiyası (Kurboncan Bobacanov...) idi...

<u>**Haşiyə:**</u> *Əlbəttə, forumda iştirak edən hər kəs kimi, bizim də Ukrayna tamaşasından gözləntilərimiz çox idi. Etiraf edək ki, siyasi motivlərin də payı az deyildi bu gözləntinin içində... Tamaşaçı zalı tıxa-basa dolu idi və gurultulu alqışlar Uraynanın Rusiya qarşısındakı mədəni, həm də siyasi dirəncinə ithaf edilirdi. Öz tamaşalarına milli geyimlə gələn rejissor Stanislav Jirkovun əlində bayraq tamaşaçıların içindən səhnəyə çıxıb təzim etməsilə guruldayan alqış səsləri isə fikrimizə zərrə qədər də şübhə yeri qoymadı.*

Kiyev Akademik Gənclər Teatrının və “Qızıl qapılar” teatrının Dmitri Boqoslavskinin eyniadlı əsəri əsasında hazırladığı **“İnsanların sevgisi”** tamaşasının qəhrəmanları həyatın “o biri üzü”nü görənlərdir, hətta həyatın “o biri üzü”ylə göz-gözə, üz-üzə yaşayanlardır. Onların monoton, boz rəngin müxtəlif çalarlarından ibarət olan cansıxıcı həyatları “soyuqqanlı” qışı xatırladır. Tamaşanın personajları isə gülçiçəkli, təravətli yazın həsrətindədirlər. Onların həsrəti də monotondur, xiffətləri də bir-birinə bənzəyir. Bu monoton həsrət, arzu-istək sonda onları elə monoton ölümə aparır.

Tamaşanın səhnə həlli isə o qədər dəqiq düşünülmüşdü ki, sanki bu bomboz həyatın bozumtul əzablarını, bozumtul və dəhşət qoxan sirlərini böyük taxta darvazaların o biri tərəfində saxlayırdı. Tamaşa boyu əksər hallarda darvaza bağlı saxlanılırdı, bu bağlı qapıların arxasında sanki dəhşətli, qorxunc nələrsə baş verirdi, sanki bütün pisliklər bu qapıların arxasında qalırdı... Əsasən də qəhrəmanlardan kimsə pis bir şey haqqında danışarkən və düşünərkən həyəcan xarakterli qəribə mistik musiqi sədaları ovqatı daha da artırır, darvazanın arxasından tamaşaçı salonuna axan ağ-mavi rəngli işıqların konsentrasiyası isə mistik ovqatın son nöqtəsini qoyurdu. Bu, səhnədən tamaşaçı zalına soyuq, şaxtalı, boranlı hava təəssüratı ötürürdü...

Əksəriyyəti moskvalı olan juri heyəti elə bu təəssüratın diqtəsilə “İnsanların sevgisi”nə Forumun ikinci mükafatını verdi, hər halda “tolerantlıq şousu” göstərmək iddiasının da öz payı var idi... Amma, deyəsən, moskvalı sənətdaşlarımız hələ uzun müddət bu təəssüratdan qurtula bilməyəcəklər. Çünki tamaşa ən yüksək mükafata, ən gözəl sözlərə layiq idi...

**Ardı var...**



“Təmiz idrak/Dişlə məni”



“İnsanların sevgisi”



“Çexov. Komediya. Qağayı”



“Muşfikinin gəncliyi”




“Arzu qatarı”